# Təhsil xalqın gələcəyidir

## 2015-Cİ İLDƏ TƏHSİL SAHƏSİNDƏ QAZANILAN UĞURLAR NÖVBƏTİ İLLƏRDƏ DƏ BU SAHƏNİN İNKİŞAFI ÜÇÜN ZƏMİN YARADIR

**Bütün istiqamətlərdə olduğu kimi, təhsil sahəsində də həyata keçirilən islahatlar yüksək qiymətləndirilməlidir. Çünki təhsil hər bir ölkə üçün strateji sahədir. Ulu öndərimiz Heydər Əliyevin bildirdiyi kimi, təhsil hər bir xalqın gələcəyidir. Bu mənada elm, təhsil ölkənin inkişafının əsasını təşkil edir.**



Ümumiyyətlə, ölkəmizdə təhsil sahəsində həyata keçirilən islahatlar, o cümlədən təhsil sistemində müasir infrastrukturun yaradılması, məktəb tikintisinin geniş vüsət alması isə xüsusilə diqqətəlayiqdir. Hazırda bütün dünyada xalqların, dövlətlərin inkişafı ilə bağlı müasir çağırışlar ilk növbədə məhz təhsillə, cəmiyyətin intellektual inkişaf səviyyəsi ilə bağlıdır. Təsadüfi deyil ki, Birləşmiş Millətlər Təşkilatı XXI əsri "Təhsil əsri" elan edib.

Bu mənada məmnunluq hissi ilə deyə bilərik ki, müstəqil Azərbaycan təhsil sahəsində müasir dövrün hədəflərinə doğru inamla irəliləyir. Ölkəmizdə təhsilin inkişafı Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Prezident İlham Əliyevin ölkəmizdə təhsilin ən yüksək səviyyədə inkişaf etdirilməsi ilə bağlı qarşıya qoyduğu hədəflər reallığa əsaslanır. İlk növbədə onu vurğulamaq lazımdır ki, Azərbaycan cəmiyyətinin, ələlxüsus da gənc nəslin təhsilə, innovasiyalara böyük marağı var. Ölkəmiz zəngin təhsil ənənələrinə, güclü intellektual və kadr potensialına malikdir. Uzun illər boyu yaranmış ənənələr yeni dövrün tələbləri nəzərə alınmaqla daha da inkişaf etdirilməlidir.

Azərbaycanda təhsilin inkişafı, bu sahədə geniş məzmunlu islahatların həyata keçirilməsi, müasir infrastruktur bazasının yaradılması həm də ölkənin güclü iqtisadi potensialı ilə şərtlənir. Hazırda Azərbaycan iqtisadiyyatının dinamik inkişaf səviyyəsi respublikada iri sosial layihələri reallaşdırmağa, o cümlədən də təhsil infrastrukturunu yeniləşdirməyə imkan verir.

Azərbaycanda təhsil sahəsinə investisiyalar yönəldilməsi dünyanın inkişaf etmiş ölkələri sırasında yer tutmağı qarşısına məqsəd qoyan dövlətimizin gələcəyinə yönəldilən sərmayələr kimi qiymətləndirilir.

Ölkədə təhsilin keyfiyyət göstəricilərinin yaxşılaşmasını şərtləndirən ən mühüm amillərdən biri isə heç şübhəsiz ki, təhsil prosesinin inkişaf etdirilməsinə, təhsil şəbəkəsinin müasir infrastrukturla təmin edilməsinə, onun maddi-texniki bazasının təkmilləşdirilməsinə, müasir standartlara cavab verən yeni məktəblərin tikilməsinə, bu yolla təhsil ocaqlarında kontingent sıxlığının aradan qaldırılmasına, tədris mühitinin optimallaşdırılmasına nail olmaqdan ibarətdir. Bu mənada son 12 ildə Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizdə təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, respublikanın hər yerində məktəb tikintisinin geniş vüsət alması təqdirəlayiqdir. Belə ki, son 10 ildə dövlət başçısının Azərbaycanın müasirləşdirilməsi siyasətinin tərkib hissəsi olaraq təhsil sahəsində də ciddi islahatlar həyata keçirilib. Respublikanın dövlət büdcəsində təhsil sahəsinə ayrılan xərclər ilbəil artır. Təsadüfi deyil ki, dövlət büdcəsində müdafiə xərclərindən sonra ən çox vəsait ayrılan sahə məhz təhsildir.

Ölkəmizin təhsil sistemində əldə olunan uğurlardan biri, heç şübhəsiz ki, məktəb tikintisi ilə bağlıdır. Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva müntəzəm olaraq təhsil sahəsində inkişafı dəstəkləyən yeni-yeni layihələrlə çıxış edir. Fond 2005-ci ildən təhsil sahəsində daha bir təşəbbüslə çıxış edərək "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsini həyata keçirməyə başlayıb. Layihənin əsas məqsədi təhsil sahəsində mövcud olan problemlərin həllinə kömək etməkdən, ölkə miqyasında müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaqdan, tədrisin səviyyəsinə bilavasitə təsir edən problemləri aradan qaldırmaqdan, cəmiyyətin müxtəlif təbəqələrinin, yerli və xarici şirkətlərin, beynəlxalq təşkilatların bu sahədə birgə əməkdaşlıq imkanlarını müəyyənləşdirərək ümumi işin xeyrinə yönəltməkdən ibarətdir. Təhsil sahəsində həyata keçirilən islahatlar davamlı xarakter daşıyır. Bu mənada "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi nəticəsində bu sahədə yeni-yeni nailiyyətlər əldə edilir.

Aparılan islahatların başlıca məqsədlərindən biri ölkəmizin təhsilini, dünya, o cümlədən Avropa təhsil sisteminə uyğunlaşdırmaq, inteqrasiya etməkdir. Şübhəsiz, bu istiqamətdə də ciddi nəticələr əldə olunur. 2006-cı ildən Azərbaycan Respublikasının ali məktəbləri Bolonya prosesinə qoşulmuşlar.

Ölkəmizdə vahid təhsil məkanı formalaşdırılır, təhsil xidmətlərinin mobilliyi təmin olunur, yeni təhsil standartları və təhsilin təşkilini reqlamentləşdirən normativ sənədlər işlənib hazırlanır. Məhz təhsil sahəsində bu cür islahatların işlənib hazırlanması təhsilin keyfiyyətinin yaxşılaşması və peşəkarlıq səviyyəsinin yüksəlməsinə töhfə verir. Digər tərəfdən, azərbaycanlı gənclərin dövlət hesabına xarici ölkələrdə təhsilini nəzərdə tutan Dövlət Proqramının icrası uğurla davam etdirilir. Bu mənada "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı"nı xüsusilə qeyd etmək lazımdır. Bu Proqramın uğurlu icrası nəticəsində hazırda xaricdə təhsil alan azərbaycanlı tələbələrin sayı 10 mindən artıqdır. Təhsilini başa vuran gənclər isə ölkəyə qayıdaraq müxtəlif sahələrdə peşəkar fəaliyyətləri ilə respublikanın inkişafına töhfələrini verirlər. 2015-ci ildə təhsildə qazanılan uğurlar göstərir ki, ölkəmizdə bu sahənin inkişafı növbəti illərdə də davam etdiriləcək, əldə olunan uğurların sayı daha da artacaq.

**Şəfiqə Dadaşova,**
***"İki sahil"***